# Səfir Lu MEY: "Çin mühüm razılaşmaların həyata keçirilməsində Azərbaycanla birgə səylər göstərməyə və qarşılıqlı faydalı əməkdaşlığa hazırdır"

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çin Xalq Respublikasının Sədri Si Cinpinin dəvəti ilə avqustun 30-dan sentyabrın 3-dək Çinə səfər edəcək. Dövlət başçısı Tyançzində keçiriləcək Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) Sammitində və Çin xalqının yapon işğalçılarına qarşı Müqavimət müharibəsində, eləcə də Ümumdünya Faşizm üzərində qələbənin 80 illiyinə həsr olunmuş yubiley mərasimində iştirak edəcək.**

AZƏRTAC xəbər verir ki, bu barədə Çinin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Lu Meyin bəyanatında qeyd olunub.

Bildirilir ki, ŞƏT Sammiti avqustun 31-dən sentyabrın 1-dək Çinin Tyançzin şəhərində keçiriləcək. Bu, təşkilat yaradılandan indiyədək ən böyük sammit olacaq. Tədbirdə 20-dən çox ölkənin liderləri və 10 beynəlxalq təşkilatın rəhbərləri iştirak edəcək. ŞƏT region ölkələrinin təhlükəsizlik və sabitliyi qorumaq, habelə birgə inkişafı təşviq etmək üçün mühüm əməkdaşlıq platformasıdır. Dünyada son yüz ildə görünməmiş miqyasda baş verən dəyişikliklər fonunda təşkilat qarşılıqlı həmrəylik və əməkdaşlığı möhkəmləndirməli, islahatların aparılmasında məqsədyönlü şəkildə irəliləməli və sülh, inkişaf, əməkdaşlıq və qarşılıqlı fayda kimi tarixi tendensiyalara daha yaxşı uyğunlaşmalıdır. Bu məqsədlə sammit iştirakçıları "Şanxay ruhunun" təşviqi, multilateralizmin həyata keçirilməsi, dayanıqlı inkişafa dəstək, həmçinin mühüm beynəlxalq və regional məsələlərin müzakirəsi üzrə fikir mübadiləsi apararaq ŞƏT-in yeni inkişaf planını birgə hazırlayacaqlar.

Diplomat vurğulayıb ki, Azərbaycan 2016-cı ildə ŞƏT-in dialoq üzrə tərəfdaşı statusunu alıb və "ŞƏT ailəsinin" mühüm üzvüdür. Çin və Azərbaycan ŞƏT çərçivəsində sıx əməkdaşlıq edir. Azərbaycan Çinin ŞƏT-ə sədrliyi dövründə işinə qətiyyətli dəstək verib və təşkilatın Siyasi partiyalar forumu, Energetika nazirlərinin müşavirəsi, Xalq diplomatiyası və qardaş şəhərlər forumu, "yaşıl inkişaf" mövzusunda forum və Çinin təşkil etdiyi digər tədbirlərə yüksəksəviyyəli nümayəndələr göndərib.



Qeyd olunub ki, bu il Çin xalqının yapon işğalçılarına qarşı Müqavimət müharibəsində və Ümumdünya Faşizm üzərində qələbənin 80 illiyi qeyd olunur. Sentyabrın 3-də Çin hökuməti Pekində "Tarixi xatırlamaq, qəhrəmanların xatirəsini uca tutmaq, sülhü qorumaq və gələcəyi açmaq" mövzusunda yubiley mərasimi keçirəcək. 80 il əvvəl 14 illik qanlı mübarizənin nəticəsində Çin xalqı işğalçılara qarşı böyük qələbə qazanmış və Ümumdünya Faşizm əleyhinə müharibədə qələbəyə mühüm töhfə vermişdi. 80 il əvvəl beynəlxalq ictimaiyyət İkinci Dünya müharibəsindən mühüm dərslər çıxardı, BMT-nin mərkəzi roluna əsaslanan, onun nizamnaməsinin məqsəd və prinsiplərinə söykənən beynəlxalq nizam yaradıldı ki, bu da dünyada sülh və sabitliyin qorunmasında mühüm rol oynadı.

"Bu gün, 80 ildən sonra biz tarixdən əldə etdiyimiz dərslərə əsaslanmalı, İkinci Dünya müharibəsində qazanılmış nəticələri qoruyub saxlamalı və planetdə sülhü qətiyyətlə müdafiə etməliyik. Biz BMT-nin yaradılmasının ilkin məqsədini unutmamalı, beynəlxalq münasibətlərin ümumi tanınmış əsas prinsiplərinə əməl etməli, BMT-nin mərkəzi rol oynadığı beynəlxalq sistemi və beynəlxalq hüquqa əsaslanan dünya düzənini qətiyyətlə müdafiə etməliyik. Biz bütün xalqlar arasında həmrəylik və əməkdaşlığı möhkəmləndirməli, bəşəriyyət üçün ortaq taleyi olan cəmiyyətin qurulmasına təşviq etmək və bəşəriyyətin nəcib sülh və inkişaf işini inkişaf etdirməliyik.

Çin və Azərbaycan faşizm əleyhinə müharibədə qazanılmış qələbəyə yaddaşlardan silinməz tarixi töhfə veriblər. Hər iki ölkə multilateralizmin, beynəlxalq bərabərlik və ədalətin müdafiəsində əsas qüvvədir. Faktlar göstərir ki, dünyada vəziyyət nə qədər çox gərginləşirsə, Çin və Azərbaycan bir o qədər çox həmrəylik və əməkdaşlığı gücləndirməli, bərabərlik və qarşılıqlı faydalı əməkdaşlıq üzərində qurulan beynəlxalq münasibətlər modeli yaratmalı, sabitlik və pozitiv enerji gətirməlidir.



Prezident İlham Əliyevin Tyançzində keçiriləcək ŞƏT Sammitində və Çin xalqının yapon işğalçılarına qarşı Müqavimət müharibəsində, eləcə də Faşizm üzərində qələbənin 80 illiyinə həsr olunmuş yubiley tədbirində iştirakı onun cari ildə Çinə ikinci səfəri olacaq. Bu, ikitərəfli və çoxtərəfli əməkdaşlığa güclü təkan verəcək, hərtərəfli strateji tərəfdaşlıq münasibətlərini daha da zənginləşdirəcək.

"Çin iki dövlət başçısı arasında əldə olunmuş mühüm razılaşmaların həyata keçirilməsinə, tərəflər arasında qarşılıqlı faydalı əməkdaşlığın təşviqinə və əhəmiyyətli nəticələrin əldə olunmasına, həmçinin beynəlxalq bərabərlik və ədalətin qorunmasına və dünya miqyasında sülh və inkişafın təşviqinə mühüm Çin-Azərbaycan töhfəsi vermək üçün Azərbaycanla birgə səylər göstərməyə hazırdır", - deyə Çinin Azərbaycandakı səfirinin bəyanatında qeyd olunub.

Azərbaycan. - 2025.- 31 avqust (№184).- S.3.